DOI: 10.36719/2020/BEK/01/291-293

**Yeganə Xanoğlan qızı Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, müəllim
yeganememmedova.doc@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏRBİYƏSİNDƏ OYUNCAQLARIN ROLU

**Xülasə**

Oyuncağın böyük pedaqoji əhəmiyyəti var. Uşaqların tərbiyəsində oyuncaqlar mühüm rol oynayır. Uşaqların fiziki, zehni, mənəvi, estetik və əmək tərbiyəsində oyuncaqlar əsas rol oynayır. Oyuncaqlar uşaqların həyatında olduğu kimi böyüklərin həyatında da dəyərlidir. Oyuncaqlar uşaqlara əşyaları idarə etməyi, harada və necə istifadə etməyi öyrədir. Uşaq oyuncaqlar vasitəsilə əşyaların xüsusiyyətləri ilə tanış olur. Oyuncaqların köməyi ilə valideynlər və müəllimlər uşaqların görmə imkanlarını genişləndirir, təfəkkürlərini inkişaf etdirir və inkişaf etdirirlər.

***Açar sözlər:*** *məktəbəqədər, uşaqlar, tərbiyə*

## The role of toys in the education of preschool children

**Summary**

The toy has great pedagogical significance. Toys play an important role in the upbringing of children. Toys play a key role in the physical, mental, moral, aesthetic and labor education of children. Toys are just as valuable in the lives of adults as they are in the lives of children. Toys teach children to handle objects,

where and how to use them. The child gets acquainted with the properties of objects through toys. With the help of toys, parents and educators expand the range of children's vision, develop their thinking and imagination.
***Key words:*** *preschool, children, upbringing*

## Giriş

Oyuncaqlar uşaqları ətraf aləmi dərk etməsində, müstəqil fəaliyyət göstərməsində, nitqin, təfəkkürün inkişafında, dünyagörüşünün formalaşmasında mühüm yer tutur. Oyuncaq uşaqların fiziki, əqli, əxlaqi, estetik və əmək tərbiyəsində əsas rol oynayır. Böyüklərin həyatında məişət əşyaları nə qədər qiymətlidirsə uşaqların da həyatında oyuncaqlar bir o qədər qiymətlidir. Oyuncaqlar uşaqlarda əşyalarla davranmağı, onlardan harda və necə istifadə etməyi öyrənirlər.

Oyuncağın pedaqoji əhəmiyyəti böyükdür. Oyuncaqlar uşaqların tərbiyəsində mühüm rol oynayır. O, uşağın əlində oyuncaq, tərbiyəçi üçün isə mühüm tərbiyə vasitələrindən biridir. Uşaq oyuncaqla müxtəlif təcrübələr əldə edə bilir. Uşaq oyuncaq vasitəsilə əşyaların xassələri ilə yaxından tanış olur. Hər bir oyuncaq real həyatdakı əşyaları, insan və heyvanları əks etdirir. Oyuncaqların köməyi ilə valideynlər və tərbiyəçilər uşaqların görüş dairəsini genişləndirir, onların təfəkkür və təxəyyülünü inkişaf etdirirlər.

Oyuncaqların məzmunu tərbiyəvi xarakter daşımalıdır. Oyuncaq insan həyatını özündə əks etdirməlidir. Valideyinlər uşağın oyuncaqdan istifadə etməsinə, özləri tərəfindən hazırlanmasına şərait yaratmalıdır.

Oyuncaq uşaqlar üçün xüsusi hazırlanmış bir əşyadır, o uşağın planını həyata keçirməsinə kömək edir. Oyuncaq elə olmalıdır ki, uşaq onunla fəal şəkildə məşğul olsun hərəkət etsin və oyunda öz rolunu oynaya bilsin. Bəzən elə olur ki, ən gözəl oyuncaq oyun planını həyata keçirməyə kömək etmir. Düzgün oyuncaqlar seçmək ciddi bir məsələdir. Məktəbəqədər uşaqlar üçün müxtəlif növ oyuncaqlar vardır. Oyuncaqları aşağıdakı kimi növlərə ayırmaq olar:

***Obrazlı oyuncaqlar*** mahiyyət etibarı ilə müxtəlif olur. Ona görə də onlar müəyyən növlərə ayrılırlar. Canlıları əks etdirən oyuncaqlar obrazlı oyuncaqlar adlanır. Obrazlı oyuncaqlar icərisində Gəlincik əsas yer tutur.

***Texniki oyuncaqlar*** məzmununa görə müxtəlif olur. Maşın, qaldırıcı kran, təyyarə, telefon, radio, kompyuter, fotoaparat və s. daxildir.

***Konstruktiv oyuncaqlar*** sökülüb-yiğılan oyuncaqlardır. Tikinti oyuncaqları uşaqlar üçün daha maraqlıdır. Belə oyuncaqlar uşaqlarda erkən yaşda texnikaya maraq tərbiyə etməklə yanaşı həm də onlarda təfəkkürün yaradıcılıq qabiliyyətini inkişaf etdirir.

***Əyləncəli oyuncaqlar*** – bu oyuncaqlar gülüş yaradan oyuncaqlardır. Belə oyuncaqlara müxtəlif canlıların (insan, heyvan, quş) fiqurları daxildir. Onlar xalq yaradıcılığı ilə çox bağlıdır. Kiçik uşaqlar üçün bunlar çıxartdığı səs, göstərdikləri hərəkətlərə görə daha maqraqlıdır. Bu tamaşa xarakteri daşıyır. Uşaqlar onlarla həvəslə oynayır, onların qeyri-adi hərəkətləri uşaqlarda gülüş doğurur.

***Musiqili oyuncaqlar*** uşaqların estetik tərbiyəsində çox əhəmiyyətlidir.Bura daxildir: musiqi alətlrinin səslərini oyuncaqlar (şaxşaxlar, zınqırovlar, tütəklər)

***Teatr oyuncaqları*** rəngarəng məzmuna malikdir. Onların əsas mahiyyəti nitqin, təfəkkürün inkişafı və estetik zövqün təşəkkülünə xidmət etməkdən ibarətdir. Həmin oyuncaqlardan kukla teatrlarında istifadə olunur.

***Didaktik oyuncaqlar*** uşaqların sensor tərbiyəsində xüsusi yeri vardır. Bu oyuncaqlar uşaqlarda fikri yaradıcılıq qabiliyyətini inkişaf etdirir (Mursaqulova, Rüstəmova, 2012:402).

Oyuncaqlar vasitəsilə tərbiyəçilər uşaqlarda texnikaya maraq yaradır, yaradıcılığa həvəs oyadır. Obrazlı və didaktik əhəmiyyət kəsb edən oyuncaqlar isə uşaqların nitqini inkişaf etdirir, lüğət fondunu zənginləşdirir. Müxtəlif materiallardan düzəldilən oyuncaqlar tərbiyəvi əhəmiyyətinə görə müxtəlif növlər üzrə (mütəhərrikli. sensor, quraşdırma) fərqlənirlər. Müasir pedaqoji ədəbiyyatda oyuncaqlar istifadə müxtəliliyinə görə təsnif olunur:

**a)** süjetli-obrazlı oyuncaqlar adamları, heyvanları, müxtəlif əşyaları əks etdirir;
**b)** oyun üçün tikinti materialı, idman və müxtəlif hərəkətlər üçün oyuncaqlar;
**c)** dekorativ kölgə və kukla teatrı üçün personajlar, dramlaşdırma üçün kostyumlar, yolka oyuncaqları;
**ç)** əyləncə üçün oyuncaqlar;
**d)** musiqi səsləndirən oyuncaqlar;
**e)** kompüter oyuncaqları.

Oyuncaqlardan qədim tarixə malik olan gəlincik tərbiyə prosesində xüsusi əhəmiyyət kəsb edir. Gəlincik insan obrazıdır. Gəlincik vasitəsilə uşaq insanların həyat və əmək tərzinə daxil olur, məişət münasibətlərini öyrənir. Tikinti materiallarına aid əşyalar quraşdırma oyununda özünəməxsus əhəmiyət kəsb edir. Bütün bu

oyuncaqlar uşaqların təsəvvürlərini genişləndirir, təxəyyülünü inkişaf etdirir. Yumşaq materialdan düzəldilmiş heyvan oyuncaqları heyvanlara maraq və məhəbbət yaratmaq üçün çox faydalıdır.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində didaktik oyuncaqların olduqca böyük əhəmiyyəti vardır. Didaktik oyuncaqlar uşaqları rəng, forma, böyüklük və s. anlayışlarla tanış edir. Didaktik oyuncaqların növləri bunlardır:

**1**) hissələri ayrılan oyuncaqlar (matryoşkalar, kürəciklər, göbələklər və s.)

**2**) qurma üçün oyuncaqlar ( həndəsi formalardan və ya rəngli kürəciklərədn ibarət olan mozaikalar);

**3**) stolüstü çap oyunları (loto, cüt şəkillər, kəsik şəkillər və kubiklər) (Həsənov, 2000:305).

## Nəticə

Oyuncaqlar uşaq oyunun atributudur. Oyuncaqlar uşaqların ətraf almi dərk etməsində müstəqil fəaliyyət göstərməsində nitqin, təfəkkürün inkişafında dünyagörüşünü formalaşmasında mühüm yer tutur. Oyuncaq uşaqların fiziki, əqli, əxlaqi, estetik və əmək tərbiyəsində əsas rol oynayır. Oyuncaq insan həyatını özünd əks etdirməlidir. Oyuncaqlar milli kolariti  milli hissləri özündə əks etdirməlidir.

Oyuncaqlar xüusi güşələrdə, gigenik şəraitdə saxlanılır. Oyuncaqlar elə şəraitdə saxlanmalıdır ki, uşaqlar onlardan istədikləri vaxtlarda istifadə edə bilsinlər. Oyuncaqlar gigenik tələblərə uyğun materiallardan hazırlanmalıdır

Oyuncaqlar öz tiplərinə görə müxtəlif olur. Onlar materialına hazırlanma texnologiyasına görə fərqlənirlər. Lakin hər bir oyuncaq real həyatdakı əşyaları, insan və heyvanları əks etdirir. Oyuncaqların düzgün seçilməsi əxlaqi keyfiyyətlərin-yoldaşlıq, dostluq, əməkdaşlıq və s. inkişafına şərait yaradır.

## Ədəbiyyat


1. Mursaqulova R., Rüstəmova N. Məktəbəqədər pedaqogika Bakı: ADPU, 2012.
2. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2000.
3. Болотина Л.Р. Дошкольная педагогика. Москва: Академический Проект Культура, 2005.


DOI: 10.36719/2020/BEK/01/293-295